# proloq

BOFORT, CƏNUBİ KAROLİNA
İYUL 1955-Cİ İL

Bürkülü gecədə xoşagəlməz bir hiss Edit Heyvorda sanki nəsə olduğunu xəbər verirdi. Boş evin qapısı ağzında kölgə görəndə, yaxud bağlı qapının cəftəsi qaldırılanda adam özünü necə hiss edərsə, Edit də çardağın pəncərəsi qarşısında hənirti duyanda özünü elə hiss edirdi. Qorxudan tükləri biz-biz durmuşdu, həyəcandan nəfəs ala bilmirdi, bədəni buz kimi tərlə örtülmüşdü.

O gah fırçaya, həmin fırça ilə gəlinciyin ağ, nişastalı çit gecə köynəyinin yaxalığına çilədiyi qırmızı rəngə, gah da bəzəkli dəniz şüşələrindən hazırlayıb pəncərənin o biri üzündən asdığı külək zınqırovlarına göz gəzdirdi. Cənubi Karolinanın yayı bürkülü keçdiyindən aylar idi ki, külək əsmirdi, bu səbəbdən də həmin zınqırovlar tərpənib səs çıxarmırdı. İndi isə gözəgörünməz meh əsdikcə buz mavisi və şüşə yaşılı rəngində olan kiçik dəniz şüşələri ilgəkdən asıla qalmış adam kimi yellənirdi.

Editin baxışları yenidən bağlı qapıya dikildi, öz-özünə dedi ki, bəlkə, əri qayıdıb. Əri qapıları bağlamağı xoşlamırdı. Edit bu barədə düşünəndə qollarındakı zədə yerlərini uzunqol kofta geyinməklə necə gizlətdiyini xatırladı. Əlindəki fırçanı kənara qoydu, bu vaxt hiss etdi ki, yenidən düzəltmək istədiyi kukla evciyinin üstünə də qırmızı rəng sıçrayıb. Edit istəyirdi ki, aşağı düşüb mətbəxə getsin və səbəti yamasın, belə etsə, Kalhun onun harada olduğunun fərqinə varmazdı.

O, stuldan durmağa imkan tapmamış qəflətən gurultu səsi eşidildi, hər tərəf işıqlandı. Güclü işıq evin yaxınlığındakı çayı və bataqlığı aydınlığa qərq etdi. Səmadakı ulduzlar görünməz oldu, hətta şüşə zınqırovlar da işıqda göründü. Şüşə zınqırovlar heyrətdən donub qalmış kimi görünən havada yellənir, elə bil nəğmə oxuyurdu. Çox keçmədi ki, fişəng işıqlarına bənzər alov dilimləri yerə düşməyə başladı, çayın suyuna düşdükcə buxar ətrafa yayıldı.

Miqrant fəhlələrin çay sahilindəki daxmaları, daxmaların damları, poçt markalarındakı çəmənliyi xatırladan çəmənliklər alova büründü. Edit pəncərədən boylananda yanğınsöndürən maşınların siqnalları eşidildi. Kiçik daxmalardan qışqırıq səsləri gəlir, qəribə iy ətrafa yayılırdı. Taxta yanarkən çıxan iy yanan neft, yaxud benzin iyinə qarışmışdı. Edit gəlincik üzərində işləməyə başlayarkən eşitdiyi təyyarə uğultusunu xatırladı. Səmadan yerə nəyin düşdüyünü məhz indi dərk edirdi.

Bir saniyə sonra o, damda küt taqqıltı eşitdi, daha sonra ona elə gəldi ki, nə isə ağır bir şey damdan aşağı sürüşdü və yağış borusuna zərblə dəydi. Sonra səs eşidilmədi, Edit damdan arxa həyətə nə düşə biləcəyini təsəvvür etməyə çalışdı.

O, cəld çardağın pilləkəninə tərəf qaçdı, ombalarındakı ayaqqabı boyda zədə yerləri sürətlə yeriməyinə mane oldu. Buna baxmayaraq, o, pillələri enib ikinci mərtəbəyə düşdü. Üçyaşlı oğlu K.J. ikinci mərtəbədəki otağında şirin yuxuda idi. Xoşbəxtlikdən, o, baş verənlərdən xəbərsiz idi, göyün sanki yerə endiyini bilmirdi.

Edit dərhal oğlunu adyalla birgə qucağına aldı. Onun isti, tərli bədənini sinəsinə sıxdı. İnildəməyinə əhəmiyyət vermədən sürətlə foyeyə düşdü, evin qapısını taybatay açdı, sütunlu portikə çıxdı, gözlərini evin qarşısındakı bağa, küçənin o biri üzündəki çaya dikdi. Sanki çay qalxan buxardan dolayı səmtini dəyişmişdi. Editin qonşuları çaya doğru axışırdılar, elə bil partlayış onların evinin yaxınlığında deyil, başqa bir yerdə baş vermişdi. Edit də həyətə düşdü, amma qonşularının arxasınca getmək əvəzinə, evinin damını gözdən keçirdi, bilmək istəyirdi, evin damı alovlanır, ya yox.

Evin damının alovlandığını görmədi. Səkkiz il bundan əvvəl ərinin çay sahilindəki evinə köçəndən bəri hər gün gördüyü mənzərə ilə qarşılaşdı. Qaranlıqda evin damı ilə müqayisədə səma kiçik görünürdü.

Oğlunu sinəsinə sıxıb bağın darvazasından çıxdı, ətrafa boylandı, göydən nəyin düşdüyünü bilmək istəyir, nəyinsə yandığını görsə, edə biləcəklərini düşünürdü. Heç bilmirdi, oğlunu bürüdüyü adyalla yanğını söndürməyə çalışardımı, yoxsa adyalı da oraya tullayıb onun yandığını seyr edərdi.

O özünün əkib-becərdiyi gül bağına baxdı. Kalhunun bəyəndiyi yeganə hobbisi bu idi. Amerika zeytunu çiçəklərinin və limon ağaclarının ətri ətrafı bürüyən tüstü iyini yox edirdi. Ay işığında Edit ağ daş döşənmiş cığırla irəli getdi, qızılgül kollarına, evin divarlarına dırmaşan gül kol-

larına yaxınlaşdı. O güman edirdi ki, damdan düşən hər nə idisə, məhz ora düşüb.

Ayağıyla yerdəki bərk şeyi təpikləyəndə yadına düşdü ki, ev başmağını soyunmayıb. Yerdə ovcunda qızılgül tutmuş əl görəndə səksəndi. Ürəyi həyəcanla döyündü. Əlini ürəyinin üstünə qoydu ki, bəlkə, ürək döyüntüləri azala. Yalnız bu məqamda başa düşdü ki, gördüyü əl Müqəddəs Mayklın mərmər heykəlinin əlidir. Edit dərk edəndə ki, onun qorunmağa ehtiyacı var, Müqəddəs Mayklın heykəlini oradan asmışdı. Həmin vaxtdan sanki heykəl onu qoruyurdu.

Ətrafa boylananda gördü ki, heykəlin o biri hissələri cığıra, palıd ağacının qırılıb yerə düşmüş budaqları arasına səpələnib. İrəli getmək istəyəndə ayağı nəyəsə ilişdi.

Siqnal səsləri çoxalmışdı. Amma Edit sanki bu səsləri eşitmirdi. Çünki qarşısında qəhvəyi rəngli dəri çamadanı görən kimi dizi üstə çöküb ona baxırdı. Elə bil bu çamadan çağırılmamış qonaq kimi onun harayına gəlmişdi.

Edit ayağa durub nə edəcəyini götür-qoy edəndə oğlu tərpəndi. Oğlunu qucağından kənara qoymaq istəmirdi, ancaq çamadanı götürmək fikrindən də vaz keçə bilmirdi. Bir yandan da qabırğasındakı zədə yerləri onu incidirdi. Nəhayət, o, aşağı əyildi və çamadanın dəstəyini qamarlayıb ehtiyatla qaldırdı, bu yolla ağırlığını yoxlamaq istəyirdi. Çamadan göründüyündən yüngül idi. Onu götürüb asta addımlarla evin arxa pilləkəninə doğru getdi, oradan da mətbəxə daxil oldu.

Edit oğlunu manejə qoyandan sonra yenidən qəhvəyi çamadanı yoxlamaq istədi. İlk dəfə olaraq, çamadanın aşağısındakı iri batıq yeri gördü. Onun dəmir rəzəsi ciddi zədələnsə də, sınmamışdı. Çamadanın başqa hissələrinin yaxşı vəziyyətdə olduğunu görüb bu qənaətə gəldi ki, dama

düşməzdən qabaq palıd ağacının yoğun budaqları çamadanda batıq yaradıb. Dəstəyindən sallana qalmış ad nişanı sanki ona toxunması üçün Editə yalvarırdı.

Edit öz-özünü danladı ki, gərək polisə zəng edəydi. Gərək onlar da biləydilər ki, o gecə göydə hansısa fəlakət baş verib və bu fəlakətin bir hissəsindən onun da bağına "pay" düşüb. Kim bilir, bəlkə də, o fəlakətdən sağ çıxan bir nəfər həmin bu çamadanı axtaracaq. Belə düşünsə də, Edit polisə zəng etməkdə tərəddüd edirdi. Heç bilmirdi, niyə belə edir, lakin çamadanda nə olduğunu öyrənmək marağı ona üstün gəlirdi.

Dodaqlarını bir-birinə sıxıb düşündü. Çamadanın cəftəsindəki düyməni basdı. Çox güman ki, qıfıllanmışdı. Ya da yerə düşərkən qıfıl elə zədələnə bilərdi ki, çamadanı açmaq mümkün olmasın, belə olsa, o gərək mütləq polis çağıra.

O, manej tərəfdən səs gəldiyini eşitdi, arxaya dönəndə gördü ki, balaca K.J. iri mavi gözlərini ona zilləyib.

– Ana! – o dedi.

Edit gülümsədi.

– Əzizim, hər şey yaxşıdır. Sən yenidən yat, olarmı?

– Çamadan, – oğlu baş barmağını sora-sora dedi.

Kalhun tez-tez Editdən tələb edirdi ki, uşağın barmaq sormasının qarşısını alsın.

– Hə, əzizim. İndi isə yat.

Oğlu hələ də ayaq üstə dayanıb onu müşahidə edirdi. Edit bilirdi ki, itaətsizlik oğluna ondan keçib, bəlkə də, buna görə ona əhəmiyyət vermirdi.

– İstəyirsənsə, bir neçə dəqiqə çamadandan göz-qulaq ol. Tez qayıdacağam, – Edit dedi.

Oğlunun tərli alnından öpüb mətbəxdən çıxdı, evin arxa qapısına tərəf getdi, qapını açıb diqqətlə ətrafa boylandı.

Əslində, bir dəstə qəzəbli insanın onun evinə doğru gəlib səhvən götürdüyü çamadanı tapmasından daha çox, ərinin geri qayıdacağından qorxurdu. Tüstünün iyi daha kəskin idi, qışqırıq səsləri əvvəlkindən çox idi. Siqnal səsləri daha yaxından eşidilirdi, çayın o biri tərəfində, qarpız və bamya əkilmiş sahələrin üzərində səma narıncı rəngə boyanmışdı.

Yenidən evə girdi, qapını örtdü, açarı burdu, mətbəxə qayıtdı, çamadana göz gəzdirdi. Oğlu hələ də ayaq üstə durub baş barmağını sora-sora çamadana baxırdı. Gözləri atasının gözlərinə bənzəyirdi. Edit gözlərini oğlundan çəkib çamadanın dəstəyinə bərkidilmiş ad nişanını qopartdı, adı və ünvanı oxumağa cəhd etdi. Kartondan hazırlanmış ad nişanı nəm idi, buna görə də yazı pozulmuşdu, oxumaq çətin idi. Ünvanı, ümumiyyətlə, oxumaq mümkün deyildi, lakin adı oxumaq çətin deyildi: Henri P.Holden.

Edit dəstəyin o biri tərəfinə göz gəzdirəndə gördü ki, ora qızılı hərflərlə HPH həkk edilib. Edit qara kostyumlu, qara şlyapalı ortayaşlı bir kişi təsəvvür etdi. Arvadını və uşağını evdə qoyub işlə əlaqədar səfərə çıxıb. Öz-özünə dedi ki, görəsən, təsəvvür etdiyi kişinin arvadı və uşağı indi haradadır, baş vermiş qəza ilə bağlı onlara necə xəbər veriblər. Onu da fikirləşdi ki, görəsən, göydən yerə düşərkən o, sağ qala bilərdimi...

Özündən ixtiyarsız çamadanın düyməsini basdı, dərhal çamadanın bir tərəfi tərpəndi, batıq olan tərəfin düyməsini də bir neçə dəfə basandan sonra açıldı.

O, çamadanı mətbəx stolunun üstünə qoyub qapağını yuxarı qaldırdı. Çamadanın içindəki müxtəlif separatorları açdı. Orada nişastalanmış, ütülənmiş kostyum-şalvar, ağappaq alt paltarları – tumanlar, maykalar və kətan əl yaylıqları

vardı. Hər şey elə kip yığılmışdı ki, çamadanın yerə düşdüyü hiss olunmurdu, demək olar, heç nə tərpənməmişdi.

Edit paltarlardan gələn yuyucu vasitənin iyini hiss etdi, onun istifadə etdiyi yuyucu vasitənin də iyi belə idi, sanki paltarlar onun öz paltaryuyan maşınında yuyulmuşdu. Çox güman ki, paltarları belə səliqə ilə bir qadın yığmışdı. Hətta Edit qadının uzaqgörənliyini düşünüb güldü. Daha sonra o, ciddi görkəm aldı, qaranlıqda koridora çıxıb zəng çalan ev telefonuna doğru gedən bir qadını gözlərinin önünə gətirdi.

Edit gözlərini çamadandakı paltarlara zillədi. Köynəklərin etiketlərinə göz gəzdirdi, yumşaq kətan əl yaylıqlarına, Henri Holdenin qabardindən tikilmiş şalvarlarına, tərtəmiz alt paltarlarına baxdı. Demək olar, hər bir əl yaylığının küncündə açıq-qırmızı rəngdə monoqram tikilmişdi: HPH

Bütün bunlar onu göstərirdi ki, o kişi biznes məqsədi ilə səfərə çıxıbmış. Bununla belə, o, çamadandakı paltarlara gözlərini zilləyəndə buna tam əmin ola bilmirdi.

Kalhun bir dəfə Editə demişdi ki, ilk dəfə onun analitik düşüncə tərzi onu özünə cəlb edib. Dul qalmış polis detektivinin yeganə övladı kimi o, başqa cür olacağını təsəvvür edə bilmirdi. Beləliklə də, bir gün yaraşıqlı vəkil Kalhun Heyvord onun yaşadığı kiçik Volterboro şəhərinə məhkəməyə vəkil kimi gələndə Edit bilmirdi ki, öz fikirləri olmayan, hər şeyə gülümsəyən bir qız kimi görünməlidir. Çünki Kalhun məhz belə qadın istəyirdi.

Oğlu, demək olar, manejdə ayaq üstə yuxulayırdı, başı manejin kənarına dəyirdi. Baş barmağı hələ də ağzında idi.

Edit narahat halda divardakı saata baxdı. Kalhun bu dəqiqələrdə evə qayıda bilərdi, evin qapısının bağlı olduğunu, arvadının da mətbəx stolu üstünə qoyduğu çamadana – yad kişinin çamadanına baxdığını görə bilərdi. Edit hələ

də ərinin harada, kiminlə vaxt keçirdiyini, yaxud təyyarənin partladığını eşidib arvadına və uşağına görə narahat olub-olmadığını düşünürdü.

Edit dərhal çamadanın içindəki separatorları bərkitmək istədi, lakin həyəcandan əlləri əsdiyi üçün düymələri düz basa bilmirdi. Məhz bu məqamda başa düşdü ki, onu nə narahat edir. Tualet komplekti. Heç bir kişi bu komplekt olmadan səfərə çıxmazdı. O, yenidən separatorları açıb göz gəzdirdi, səliqə ilə yığılmış paltarlara baxdı, paltarların daha çox olduğu separatoru bir də yoxladı, çamadanın lap kiçik cibini də açıb baxdı, adətən, tualet komplekti ora qoyulurdu. Edit dodaqlarını bir-birinə sıxıb fikrə getdi. Bəlkə, mister Holden təyyarəyə minməzdən qabaq həmin komplekti çamadandan götürüb atıb, düşünüb ki, təyyarədə başqa bir şeydən istifadə edər.

Edit öz-özünə gülümsədi. Hələ uşaqlıqdan onda hər şeyi bilmək həvəsi formalaşmışdı. Belə məqamlarda atası ona hansı sualları verməyi öyrətmişdi. Bir neçə il uşağı doğulmadan tələf olanda, Kalhunun buna görə dilxor olduğu vaxtlarda atasının öyrətdikləri ona kömək olmuşdu. O, rəfiqələrinin, ərinin məzəmmətinə əhəmiyyət verməyib yerli polis şöbəsinə müraciət etmiş, qeyri-adi bacarığı olan bir rəssam kimi öz köməyini təklif etmişdi. Belə etmək onu çox şeydən xilas etmişdi.

Saatın neçə olduğunu, yaxınlaşmaqda olan siqnal səslərini unudub əlini çamadana uzatdı, yenidən paltarlarının arasını eşələyib üzqırxan komplekti axtardı. Əvvəlcə çamadanın yuxarı hissəsini, sonra aşağı tərəfini axtardı. Birdən barmağı bərk bir şeyə toxundu, hər nə idisə, parça materialdan deyildi. Edit üç cüt qara corabı kənara eləyəndə orada qatlanmış bir zərf gördü.